# "**Vergi ödəyicisinin** debitor və kreditor **borcları haqqında**" məlumat forması təsdiq edilib

Vergi Məcəlləsinə edilmiş dəyişikliklərə əsasən ƏDV-nin məqsədləri üçün qeydiyyata alınmış vergi ödəyiciləri qanunvericiliklə nəzərdə tutulan müddətlərdə təqdim etdikləri bəyannamələrlə eyni gündə vergi ili üzrə kreditor və debitor borcları barədə müəyyən edilmiş formada məlumatı elektron qaydada vergi orqanına təqdim etməlidir.

Həmçinin, orta və iri sahibkarlıq subyektləri 2022-ci ilin yanvarın 1-dək, kiçik sahibkarlıq subyektləri isə 2023-cü il yanvarın 1-dək yaranmış debitor və kreditor borcları barədə məlumatı müəyyən edilmiş formada müvafiq olaraq, 2022-ci il martın 31-dək və 2023-cü il martın 31-dək vergi orqanına təqdim etməlidirlər.

Vergi Məcəlləsinə edilmiş dəyişikliklər üzrə işlərin vaxtında və keyfiyyətlə yerinə yetirilməsini təmin etmək məqsədilə İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidməti tərəfindən "Vergi ödəyicilərinin debitor və kreditor borclarının ödənilməsi haqqında" Məlumat forması təsdiq edilib.

# **Vergi bəyannamələrinin** yeni formaları **təsdiqlənib**



Azərbaycan Respublikasının Vergi Məcəlləsinə edilmiş dəyişikliklərlə bağlı "Dövlət rüsumu haqqında" Qanuna və digər qanunvericilik aktlarına da müvafiq dəyişikliklər olunub. Bununla əlaqədar, İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidmətində "Sadələşdirilmiş verginin bəyannaməsi" və onun tərtib edilməsi qaydası, "Sadələşdirilmiş verginin bəyannaməsinə 2 nömrəli Əlavə" və onun tərtib edilməsi qaydası, "Uduşlardan (mükafatdan) əldə edilən gəlirdən ödəmə mənbəyində tutulan verginin bəyannaməsi" və onun tərtib edilməsi qaydası, həmçinin "Dövlət rüsumunun tutulması haqqında hesabat"ın forması və onun tərtib edilməsi qaydası yeni redaktədə təsdiq olunub. Bununla da əvvəlki illərdə təsdiq olunmuş eyniadlı sənədlər ləğv edilib.

Qaydalar 1 yanvar 2022-ci ildən qüvvəyə minib.